UOT 94(479.24)

MUSA RƏHİMOĞLU - QULİYEV
AMEA Naxçıvan Bölməsi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi,tarix üzrə fəlsəfə doktoru
kuliyevm@yandex.ru

XURŞUD XANIM QACAR-NAXÇIVANSKAYA

DOI: https://doi.org/10.36719/2708-065X/106/138-142

Məqalədə naxçıvanlı hərbçi Rəhim xan Naxçıvanskinin-Kəngərlinin qızı, opera müğənnisi və şairə Xurşud xanım Qacarın həyat və fəaliyyətindən danışılır. Xurşud xanımın C.Cabbarlı adına Teatr Muzeyi Arxivində saxlanılan şəxsi fondu ilk dəfə tədqiqata cəlb edilmişdir. Məqalənin yazılmasında yeni arxiv sənədlərindən istifadə edilmişdir.

*Açar sözlər***:** Naxçıvan şəhəri, Bakı, Feyzulla Mirzə Qacar, müğənni, şairə, Moskva, Kəngərli tayfası.

Giriş. XX əsrin 80-ci illərinədək Naxçıvanda, şəhərin mərkəzində - Xan Dikində, Mömünə Xatın türbəsinin yanında memarlığı ilə seçilən bir mülk qalırdı. Bu naxçıvanlı hərbçi Rəhim xan Naxçıvanskinin 1890-cı ildən sonra tikdirdiyi mülkü idi.

Qeyd edək ki, Rəhim xan atası general-mayor II Kalbalı xandan sonra, babası Ehsan xanın sarayında yaşayırdı. Dediyimiz kimi, həm də sarayın qarşısında özünə əlavə bir mülk də tikdirmişdi. Həmin illərdə hər ikisinə Naxçıvanda Rəhim xanın mülkü deyirdilər. 1920-cü ildən sonra Rəhim xanın ikinci mülkünü kazarma, məktəb, sonralar isə hərbi komissarlıq etmişdilər. Bu zaman mülkün pəncərələrinə armaturlar əlavə ediblər. Artırmanı da dəyişiblər. Təsadüfi deyil ki, 1905-ci ildə Naxçıvana gələn italyan tarixçisi, diplomatı və səyyahı Luici Villari (1876-1959) oçerklərdən və yol qeydlərindən ibarət olan "Qafqazda Od və Qılınc" kitabında naxçıvanlı hərbçilər Rəhimxan və Cəfərqulu xan Naxçıvanski qardaşları ilə görüşməyindən də söhbət açıb. İtaliyanın Xarici İşlər Nazirliyində işləyən Luici Villari sonralar qəzet müxbiri kimi də fəaliyyət göstərib. O, İtaliyanın, Amerikanın Yeni Orlean və Boston şəhərində vitse-konsul olmaqla bərabər, həm də Qafqaza və onun siyasi tarixinə aid maraqlı yazıların müəllifidir. İtaliyan tarixçisi Luici də digər səyyahlar kimi Rəhim xanla və qardaşı Cəfərqulu xanla görüşlərindən, onların yüksək dünyagörüşlərindən və ziyalılıqlarından söhbət açıb. Hətta onların sarayında olan yüksək Avropa mədəniyyətindən də yazıb. Bir sözlə, Şərq adət-ənənələri ilə yaşayan qardaşların kübarlığı və hərbi sənətləri italyan tarixçisini valeh edib [7, s.213-215].

Azərbaycanın Əməkdar Mədəniyyət İşçisi, lirik soprano müğənnisi Xurşud Qacar (Naxçıvanskaya) 1894-cü ildə Naxçıvan şəhərində Ehsan xanın oğul nəvəsi Rəhim xan Naxçıvansikinin ailəsində, yuxarıda təsvir etdiyimiz sarayda anadan olmuşdur. Xurşud xanımın sənədlərdə 2 doğum tarixi vardır. Atası Rəhim xanın hərbi arxivdə saxlanılan sənədində onun doğum tarixi 1888 kimi qeyd edilib [7, s.347]. Amma özünün teatr muzeyində saxlanılan şəxsi arxivində doğum tarixi 1894-cü il kimi qeyd edilib. Onun həyatından və fəaliyyətindən söhbət açmazdan əvvəlcə qeyd edək ki, Xurşud xanım haqqında az yazılıb. Çünki musiqi ensiklopediyalarında və digər kitablarda olduqca az məlumat vardır. Həyatın və taıeyin dolanbac yollarında müsibətlər yaşamış Xurşud xanımla uzun müddət idi ki, axtarışlar aparırdıq. Axtarışlarımızda köməyimizə çatan "Qobustan" toplusundakı həcmcə kiçik, mənaca böyük olan bir məqalə oldu. Əflatun Nemətzadənin "İllərdə izlər: Xurşud xanım Qacar" adlı yazısı imkan yaratdı ki, opera müğənnisinin şəxsi arxivinin axtarışına başlayaq.

Yazının müəllifi opera müğənnisi Xurşud xanımın yığcam tərcümeyi-halını verməklə sonda yazır ki, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xurşud xanımın kiçik, lakin zəngin və maraqlı arxivi var [2, s.83].

Bu sənədlərin içərisində Xurşud xanımın sağlığında yazıldığı tərcümeyi-halı da vardır. Amma birinci səhifə yoxdur. Məlumatlar 1918-ci ildən başlayaraq yazılıb.

Xurşud xanımın arxivi teatr muzeyinə vəfatından sonra verilib. Kim tərəfindən verildiyi naməlumdur. Burada əsasən onun məktubları və ona yazılan bəzi məktublar, teleqramlar, müğənninin top-

ladığı xalq mahnıları, şeirləri, ona ithaf edilən şeirlər və digər sənədləri saxlanılır [1, inv.№6453, 6474, 6479].

Xurşud xanım ata tərəfdən Naxçıvanın Kəngərli xanlarının, ana tərəfdən isə İrəvanın Makulu-Bayat (Makinski) xanlarındandır. Onun atası Rəhim xan dövrünün məşhur süvarilərindən olub. Hətta 54 yaşında Birinci Dünya müharibəsində də döyüşüb, hərbi təltiflər alıb. 1920-ci ilədək Naxçıvanda yaşayıb. 1920-ci ildən sonra bolşeviklər ona Naxçıvanda yaşamağa icazə verməyiblər. Qarabağa sürgün ediblər. 1922-ci ildə İrana mühacirət edə bilib.

Anası Münəvvər xanım Hacı Şükür Makinskinin qızıdır. Münəvvər xanımın anası isə Ehsan xanın qızı Lalabəyimdir. Münəvvər xanım Xurşud xanım çox kiçikkən vəfat edib. Ona görə də Rəhim xan qızı Xurşud xanımı Bakıda yerləşən Müqəddəs Nina adına internatda oxumağa aparıb. Müqəddəs Nina adlı məktəbi bitirən Xurşud xanım 1915-ci ildə Moskva Konservatoriyasına qəbul edilib. O, xaricdə təhsil alan ilk azərbaycanlı qadınlardan biri olub. Xurşud xanım vokal təhsilini Moskva Konservartoriyasında, professor Umberto Avqustoviç Mazettidən alıb. Mazetti 1867-ci il fevralın 18-də İtaliyanın Boloniya şəhəri ətrafında anadan olub. Onun sənət karyerası V. Martucci ilə fortepiano və bəstəkarlıq təhsili aldığı Boloniya Musiqili Liseyində başlamışdır. Öz vətənində məşhur olan bəstəkarı 1899-cu ildə Moskva konservatoriyasının direktoru V.İ.Safonov Moskvaya, konservartoriyada dərs verməyə dəvət edib. Bəstəkar ömrünün sonuna kimi burada işləmişdir.

O, dərs dediyi tələbələrinə qəlbdən o qədər bağlanmışdı ki, Birinci dünya müharibəsi başlayanda belə, İtaliyaya qayıtmadı. Mazetti təlimdə çox sərt, tələbkar və nizam-intizamlı olsa da tələbələri onu ürəkdən sevirdilər. Onun sevimli tələbələrindən biri də naxçıvanlı Xurşud xanım Naxçıvanskaya idi. Dərs dediyi tələbələrə də vokala ciddi münasibət bəsləməyi öyrədirdi.

Mazettinin sinfində təhsil alan Xurşud xanıma xalq artistləri Nejdanovanın, Sobinovun, professor Speranskinin, dirijorlar Qolovanovun və Şteynberqin çox köməyi dəyib [4].

Xurşud xanımın özünün yazdığından məlum olur ki, artıq o, 1918-ci ildə Moskvada işləməyə başlayıb. 1919-cu ildən isə Radio İttifaqında işləyib. 1924-cü ilə kimi konsert briqadalarının tərkibində Moskva və Moskva ətrafında konsertlər verib. Lirik seprano səsli müğənni Moskva estrada ansamblında solist olub [1, inv№6460].

Müğənni haqqında yazanlardan biri – İskəndərova Gülarə xanımın nəvələri onun vəfatından sonra (2010, 1 noyabr) nənələrinin xatirələrini çap ediblər. Gülarə xanım 22 yanvar 1911-ci ildə doğulub. Mühəndislik təhsili alsa da poliqlot və opera müğənnisi kimi tanınıb. Gülarə xanım Xurşud xanımın həyatından da bəzi açılmamış səhifələrə aydınlıq gətirib. Onun xatirələrindən məlum olur ki, Xurşud xanım onun anası Qəmər Əmiraslanova ilə birlikdə Müqəddəs Nina məktəbində oxumuşdur. Qəmər Əmiraslanova Azərbaycanın ilk qadın həkimlərindən biri olmuşdur. O, ana tərəfdən Cavanşirlər nəslindəndir. Xurşud xanım haqqında yazanlar onun Sankt-Peterburqda əmisi tam süvari generalı Hüseyn xan Naxçıvanskinin yanında yaşamasından yazmırlar. Xurşud xanım özü də tərcümeyi-halında 1919-1924-cü illərdən heç nə yazmır. Amma Gülarə xanım bu haqda, həm də sosialist inqilabi illərində onun Moskvada çox çətinlik çəkməsindən də danışır. Gülarə xanım yazır ki, Xurşud xanım Peterburqda yaşayırdı və Bakıda bizim qonşumuz olmuşdu. Moskvanın tələtümü günlərində o, Starokonyuşnaya küçəsində hansısa bir qadın qohumunun evində qalırdı. Bir məqsədi vardı ki, oğlunu qorusun [4].

Qacarlar sülaləsi haqqında sanballı bir tədqiqat əsəri yazan Eldar Elxanoğlu İsmayılovun yazdığına görə Xurşud xanım 1908-ci il yanvarın 25-də Peterburqda şahzadə Feyzulla Mirzə Qacarla ailə qurmuşdur. Feyzulla Mirzə Bəhmən Mirzə Qacarın nəvəsi polkovnik şahzadə Şəfi xanın (Şuşa, 19.04.1853 – Sankt-Peterburq, 2.01.1909) oğludur. Şəfi xanın atası Bəhmən Mirzənin oğlu Cəlaləddin Mirzədir (1833-1887) [5, s.249-258]. Rusiyanın hərb tarixini araşdırarkən aydın oldu ki, paj korpusunda təhsil alan azərbaycanlıların əksəriyyəti Naxçıvan Kəngərliləri və Təbrizdən Şuşaya və Tiflisə köçən Qacarlar olmuşlar. Azərbaycanlı kavalerlər haqqında maraqlı kitablar yazan gənc hərb tarixçisi Eldar Elxan oğlu İsmayılovun tapıntıları təqdirə layiqdir.O, yazdığı kitabında general-mayor Feyzulla Mirzə Qacarın da hərbi fəaliyyətini arxiv sənədləri əsasında tədqiq etmişdir. Feyzulla Mirzə ilə bağlı xeyli sənədlər Gürcüstan Milli Arxivinin də fondlarında saxlanılır. Çünki onun hərbi təhsil illəri Tiflis kadet korpusundan başlanır. Feyzulla Mirzə Qacarın formulyar siyahısı (hərbi xidmət kitabçası) ilə tanış olanda heyrətini və sevincini gizlədə bilmirsən. Sanki bir hərbi epopeyanın ən ma-

raqlı səhifələrini oxuyursan. Onun hərbi fəaliyyəti əsasən Qafqazın süvari diviziyasının tərkibində olan Birinci Dağıstan, iki Osetin, Kabardin, Çərkəz, Çeçen, Tatar, İnquş briqadalarında komandir vəzifəsində olmuşdur. O, Qafqazda, ümumilikdə Çar Rusiyasında hərbi xidmətdə olduğu illərdə Naxçıvanskilər və İrəvanskilər ilə sıx əlaqə saxlamış və cəbhə dostları olmuşlar. Feyzulla Mirzə Qacar o illərdə Moskvada təhsil alan Xurşud xanımla tanış olmuşdu. Bu tanışlığa səbəb Feyzulla Mirzə Qacarın Xurşud xanım Qacarın əmisi Hüseyn xanla dostluğu səbəb olmuşdu. Ona görə də Feyzulla Mirzə Qacarla Xurşud xanımın izdivacı baş tutur.

1918-ci ilin sonunda süvari diviziyasının rəisi general-mayor şahzadə Feyzulla Mirzə Qacar Gəncəyə gəlir. 9 yanvar 1919-cu ildə ADR-in hərbi nazirinin əmri ilə Gəncə şəhərinin qarnizon qoşunlarına rəis təyi edilir. Gəncə üsyanından sonra onun haqqında heç bir yazılı məlumata rast gələ bilmirik. Bakıda çap edilən kitablarda onun güllələnməsi haqda məlumatlar vardır. Hərb tarixçisi E.İsmayılovun yazdığı kitabdan məlum olur ki, Feyzulla Mirzə ilə Xurşud xanımın Şəfi xan adında oğlanları olub. Şəfi xan 29 iyun 1909-cu ildə Moskvada anadan olmuşdur [6, s.203-220]. Ancaq onun da tale yolu 1920-ci ildən sonra qaranlıq qalır. 11 yaşlı Şəfi xanın başına gələnlərdən hələ ki, heç nə yaza bilmirik.

1924-cü ildə Xurşud xanımın özünün yazdığına görə, Azərbaycan Xalq Komissarlar Soveti onu Bakıya, Azərbaycan Dövlət Türk Opera Teatrına işləməyə dəvət edir. Bu işin həyata keçirilməsində əsaslı köməklik edənlər Üzeyir Hacıbəyov və Müslüm Maqomayev olub. 1924-cü ildən Xurşud xanım Bakıda işləyir. Özü bu haqda yazır: "Dəvət olunduğum gündən (1924-cü il) ardıcıl olaraq 9 il opera teatrında tamamilə türk operalarında oynamışam. İlk 7 ildə bütün operalarda partiyaları ancaq mən oxumuşam. Özü də məni kimsə əvəz etməyib". Bu çətin illərdə xan qızını təqiblərdən və həbslərdən qoruyan Üzeyir Hacıbəyov olub. İstedadlı və kimsəsiz qalan Xurşud xanımın məhv edilməsinə Üzeyir bəy imkan verməyib. Opera müğənnisi Xurşud xanımın yazdıqlarından: "1932-ci ildə məni pambıq yığmağa apardılar. Mən birinci dəfə belə bir pambıq yürüşündə iştirak edirdim. Pambıq topladığım rayonların kolxozlarında mənim işimi bəyəndilər və məni "zərbəçi" elan etdilər" [1].

1924-cü ildə Xurşud xanım Bakı Opera və Balet teatrında fəaliyyətə başlayan Xurşud xanım 10 il ərzində "Şah İsmayıl"da Gülzar, "Şah Abbas"da Xurşud Banu, "Arşın mal alan"da Gülçöhrə və Asya, "O olmasın, bu olsun"da Gülnaz rollarını ustalıqla ifa etmişdir. Onun ən çox sevdiyi rol Bizenin "Karmen" operasındakı Mikaela olmuşdur [1].

Xurşud xanımın şəxsi arxivində saxlanılan sənədləri araşdırarkən görürük ki, zamanında Xurşud xanım böyük əhəmiyyətə malik olan bir işi – muğamların nota alınmasını uğurla yerinə yetirmişdir. Üzeyir Hacıbəyovun göstərişinə əsasən Xurşud xanım muğamların nota alınması işi ilə məşğul olmuşdur. Muğamların nota alınması işində cavan bəstəkarlardan Tofiq Quliyev və Zakir Bağırov onun yaxın köməkçiləri olmuşdur.

"Dügah", "Rast", "Segah", "Zabul" muğamları nota alınmış və fleyta, fortepiano və tarda ifa edilib. Muğamları fleytada Leninqrad (indiki Sankt-Peterburq) filormaniyasının solisti, əməkdar artist Qüriyeno, pianoda Kozlov, tarda Mansurov ifa etmişlər.

Xurşud xanım özü bu işi yüksək qiymətləndirmiş və türk musiqisinin sonrakı inkişafı və təbliğatı üçün vacib mərhələ bilmişdir. Və bunu danmaq olmaz. Öz tərcümeyi-halında bunları qeyd edən Xurşud xanım Qacar sonra davam edərək yazır: "1927-29-cu illərdə özüm tərəfindən yazılmış türk xalq mahnılarının yenidən işlənməsi üçün bəstəkar Vasilenkaya və Azərbaycan Konservatoiyasının professoru yoldaş Abuya təqdim etmişəm. Artıq bütün vokal ədəbiyyat Bakıda nəşr olunur. Yuxarıda deyilənləri cəmləyərək mənim bir artist və musiqiçi kimi Azərbaycanda gördüyüm işlər haqqında Xalq Komissarları Soveti imkan tapar ki, mənim işimi qeyd etsin. Bu işlər hamısı ötüb gedən illər ərzində mənimlə birgə opera səhnəsində fəaliyyət göstərən iş yoldaşlarımın fəaliyyətidir"[1]. Burada Xurşud xanım tərcümeyi-halını bitirib. Buradakı yazılanlardan görünür ki, Xurşud xanım onun əməyinin qiymətləndirilməməsindən narazı imiş. Onun istedadlı musiqiçi olmasına baxmayaraq, xan əsilli olması əsas maneələrdən biri imiş. Ən əsası isə atası Rəhim xanın və qardaşı İskəndər xanın Tehranda yaşamaları idi.

Repressiya illərinə hələ 5 il qalır: 1937-ci il uzaqda deyil. Amma bir məsələ onu sürgünlərdən qoruyur. Əvvəlcə onu deyək ki, Xurşud xanımın Moskva konservatoriyasından tanıdığı A.Nejdanova (Mazettinin həyat yoldaşı), Barsova və Vladimirova Xurşud xanımı unutmamışdılar. Onunla daima

əlaqə saxlayırdılar. Hətta Bakıya qastrol səfərlərinə gələndə onun evində qalırdılar. Moskvalı rəfiqələrinin məsləhəti ilə 1933-cü ildə Xurşud xanım rus zadəganlarından olan Xudyakov Nikolay Nikolayeviçlə ailə qurur. Xudyakov həmin illərdə Bakıda yüksək vəzifə daşıyırmış, Xalq Nəzarəti Sədri imiş. Xudyakovun belə yüksək vəzifə tutması Xurşud xanımı Stalin və Bağırov repressiyalarından xilas edir. Qraf N.N.Xudyakovla Xurşudxanımın nikahından övladları olmamışdır. Onlar Qarabağda vəbadan həlak olmuş həkim qraf Konstantin Xudyakovun varisləri olan Nadir Əliyev – Xudyakovu, Adilə Əliyeva – Xudyakovanı və Marina Xudyakovanı övladlığa götürmüşlər. Konstantin qraf Nikolay Xudyokovun qardaşıdır.

Konstantin qraf Nikolay Xudyakovun qardaşıdır. Qeyd edək ki, Nadir və Adilənin ata tərəfdən babası Ağa Əliyev Şamaxıdandır, məşhur seyidlərdən olub. Onların anaları isə həkim Xudyakovun qızı olmuşdur. Ola bilsin ki, Marina Xudyakova iki qardaşdan birinin qızıdır. Avropada yaşayan tanınmış pianoçu Adilə xanım yazdığı xatirələrdə Xurşud xanımı çox minnətdarlıqla xatırlayır. O, qeyd edir ki, Xurşud xanım təkcə gözəl yox, həm də qeyri-adi qadın idi. Onun xatirələrindən məlum olur ki, Xurşud xanım şair Mayakovski ilə də dostluq etmiş və məktublaşmışdır [3].

Xurşud xanım Qacarın Azərbaycan Milli Tarix Muzeyində 6 ədəd fotoşəkli saxlanılır: 1) M.Maqomayev "Şah İsmayıl" operasında rolları ifa edən Hüseyn Hacıbabayev, Hənəfi Terequlov, Xurşud xanım Qacar, Abbasmirzə Şərifzadə, Həqiqət Rzayeva, habelə orkestrin iştirakçısı Qurban Pirimov və başqaları ilə. 1929-1931-ci illər; 2) Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasından səhnə. Gülçöhrə rolunda Xurşud xanım Qacar; 3) Xurşud xanım Qacar "Məhbubə Paşayeva, Həqiqət Rzayeva və Hüsynağa Hacıbabayev Üzeyir bəyin "Arşın mal alan" musiqili komediyasında; 4) Aktrisa Xurşud xanım Qacar səhnə geyimində; 5) Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasından səhnə. Əsgər rolunda - Hüseynqulu Sarabski, Gölçöhrə rolunda – Xurşud xanım Qacar; 6) Üzeyir bəyin "O olmasın, bu olsun" musiqili komediyasından səhnə. Gülnaz rolunda – Xurşud xanım Qacar və Sərvər rolunda H.Hacıbabayev, 1930-cu il.

Xurşud xanım nəşriyyat müdiri olduğu illərdə, yəni 1935-ci ildə opera teatrının nəzdində tələbələr üçün studiya yaratmış və onların ifasında Anton Rubinşteynin "Demon" və Nikolay Rimski-Korsakovun "Çar gəlini" tamaşalarını hazırlamışdır.

Xurşud xanımın şəxsi arxivində onun müxtəlif illərdə rus dilində yazdığı şeirlər də vardır. Sevgi, kədərli günlər, vətən, yurd sevgisi onun şeirlərində əsas mövzudur. 1920-30-cu illərdə yazdığı şeirlərində itirdiyi ərizələrini incə, gizli bir kədərlə qələmə alıb. M.Qalperin adlı bir müəllifin Xurşud xanıma ithaf etdiyi "Portret" şeirində qara geyimli türk qızı müğənninin özüdür. Bir çox şeirlərində "mən türk qızıyam" deyə oxucuya xitab edir [1, inv.№00487/2].

Onun Azərbaycana, Şah İsmayıla, Naxçıvana və digər insanlara ithaf etdiyi şeirlər də maraq doğurur. Gələcəkdə onun yazdığı şeirlər rus dilindən Azərbaycan dilinə çevrilsə və çap edilsə çox yaxşı olar.

Xurşud xanım rus yazıçısı Tolstoyun və rus şairi Sergey Yeseninin yaradıcılığını da sevmişdir, öyrənmişdir. Onlara ithaf etdiyi şeirlər də vardır. Onun arxivində özünün əli ilə yazdığı çoxlu xalq mahnıları dəftəri də vardır. Elə mahnılar var ki, onlar heç vaxt repertuarda olmayıb. Xurşud xanım Qacarın arxivində ona göndərilən teleqramlar da maraqlıdır. Cperanskilər ailəsindən, Şteynberqlərdən, İosif Mirzəbəyovdan, Fatma xanım Muxtarovadan gələn teleqramlar bir çox hadisələrin açılmasına köməklik edə bilər. O, Azərbaycanın "Əməkdar Mədəniyyət İşçisi" fəxri adını alanda ona göndərilən teleqramların da çoxu şəxsi arxivində saxlanılır [1, 6477-6478].

Nəticə. Xurşud xanım Qacar Mərkəzi Pionerlər evində incəsənət şöbəsinin müdiri, uşaq bədii tərbiyə evinin direktoru, Bakı Xalq Maarif Şöbəsi nəzdində mədəniyyət evinin bədii rəhbəri vəzifələrində də çalışmışdır.

O, 1963-cü yaxud 1964-cü ilin yayında Bakıda vəfat etmişdir. Xurşud xanım Bakıda bütün ömrünü o vaxtkı leytenant Şmidt küçəsindəki 8 nömrəli binada yaşamışdır. Xurşud xanım çox sevdiyi həyat yoldaşı general Feyzulla Mirzə Qacardan sonra çox çətin günlər yaşayıb. Atası, qardaşı mühacirətdə, digər qohumları isə sürgünlərdə və qürbətdə ömürlərini başa vurdular. Çox qohumlarını güllələdilər.

İncəsənətə bağlılığı ona dərdlərini unutdururdu. 1926-cı ildə teatrın truppası ilə Naxçıvana gəldi. Arada vaxt tapıb bibisi Çimnaz xanımın qızı Bilqeyis xanımgilə getdi. O vaxt onları sürgün etmə-

mişdilər. 1937-ci ilə hələ 10 il qalırdı. Xurşud xanım isə özü haqqında heç nə deyə bilmirdi. Çünki onun özü digər qohumlarının və eləcə də qürbət ölkədəki atası Rəhim xanın və qardaşı İskəndər xanın təhlükəsizliyi üçün girov idi. Yəni ömrünün sonuna kimi susmalı və Naxçıvanskaya olduğunu heç kimə bildirməməliydi. Sadəcə, opera müğənnisi Xurşud Qacar idi.

ƏDƏBİYYAT

1. Xurşud Qacarın şəxsi arxivi. C.Cabbarkı adına Azəhbaycan Dövlət Teatr Muzeyi
2. Nemətzadə Ə. İllərdə izlər:Xurşud Qacar. "Qobustan" incəsənət toplusu, 1970, №2, s.83.
3. Адиля и Адилия. Воспоминания. Region Plus. 21октября 2022г.
4. Искендерова Гюляра. Принцесса Каджар. Region plüş .az/ru/ articles/view/3366
5. Исмаилов Э.Э. Персидские принцы из дома Каджаров в Российской Империи. Москва: 2009, 594 с.
6. Исмаилов Э.Э. Георгиевские кавалеры-азербайджанцы. Москва: 2005, 248с.
7. Нагдалиев Ф.Ф.Ханы Нахичеванские в Российской Империи. Москва: 2006, 432с.

МУСА РАГИМОГЛУ-КУЛИЕВ
Нахчыванское отделение НАНА, доктор философских наук

ХУРШУД ХАНУМ НАХЧЫВАНСКАЯ- КАДЖАР

В статье говорится о жизни и деятельности оперной певицы, поэтэссы, дочки Нахчыванского военного Рагим хана Нахчыванского. Личный фонд Хуршуд ханум,который хранится в театральном музее имени Дж.Джабарлы,первый раз пущен в научный оборот. Статья написана на основе новых архивных документов.

Ключевые слова: город Нахчыван, Баку, Файзулла Мирза Каджар, певец, поэтесса, Москва, племя Кенгерли.

MUSA RAHİMOGLU-GULİYEV
Nakhchivan Department of ANAS, Doctor of Philosophy in History

KHURSHUD XANUM NAKHCHİVANSKAYA-GAJAR

The research paper speaks about the opera singer and poetess Khurshud khanum Gajar's life and activity, who was the daughter of Rahim khan Nakhchivanski, a military officer from Nakhchivan. Here Khurshud khanum's private fund that is preserved in the archive of Azerbaijan State Theatre Museum named after J.Jabbarli is investigated for the first time. The new archive documents have also been used for the first time while writing the article.

Keywords: Nakhchivan city, Baku, Feyzulla Mirza Gajar, singer, poetess, Moscow, Kangarli tribe.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.
Rəyçi: Akademik İsmayıl Hacıyev.